# "BƏYAZIN NƏĞMƏLƏRİ"

**Təqribən bir ay bundan öncə həmkarım, tələbə yoldaşım Vaqif İsaqoğlu özünün yeni işıq üzü görmüş kitabını mənə bağışladı. Açığını deyim ki, çox məhsuldar yaradıcılardan olan Vaqif İsaqoğlu qələmini müxtəlif mövzularda ardıcıl olaraq sınayıb. Onun bu uğurlu sınaqları ədəbi sözə, ümumiyyətlə bizim ədəbiyyat aləmimizə həm könüllü, həm də diqqətçəkən xidmətdi. Necə deyərlər, o, bacardığını edir. Yəni bir-birindən maraqlı və diqqətçəkən kitabları ədəbi ictimaiyyətin gündəminə gətirir.**

Vaqif İsaqoğlunun yeni kitabı nəvəsinə, yəni balaca Bəyaza həsr olunub. Və bu kitabdakı yeni şeirlər Bəyaza və onun yaşıdlarına bir topa çiçək hədiyyəsidir. Və maraqlıdır ki, bu çiçəklər bir taladan, bir ormandan dərilməyib, toplanmayıb. Onların hər biri ayrı-ayrı çəmənin, ayrı-ayrı bağın, bağçanın çiçəyidi, gülüdü. Və bunu da Vaqif İsaqoğlu təkcə baba sevgisi ilə deyil, həm bir bir şair, bir yaradıcı insan sevgisiylə dərib, toplayıbdı. Məsələn:

**Təzə açıb gözünü,**
**Bal yuxulu Bəyazım.**
**Naza qoyub özünü,**
**Süd qoxulu Bəyazım.**

Və yaxud:

**Sənə qurban mən özüm,**
**Sənsən ən şirin sözüm.**
**Ay mənim canım, gözüm,**
**Qədəmlərin mübarək.**

Bu iki nümunə ayrı-ayrı şeirdəndi. Amma onların hər ikisində çox səmimi, isti bir təsvir və etiraf var. Bu da həm babanın, həm də şairin özünün iç dünyasının sözə köçən, hopan çalarlarıdı. Deməli, bütün babalar və nənələr kimi Bəyazın doğmaları da o nəvə sevincini yaşaya-yaşaya onu həm də cilalayırlar. Onu öz xəyallarıyıla, öz istəkləriylə daha şəffaf, daha mənalı edirlər. Necə ki, Vaqif İsaqoğlu yazır:

**Ay mənim çiçək balam,**
**Çiçəkdən göyçək balam.**
**Qırmızı lalələrdən,**
**Sənə don biçək, balam.**

Və yaxud:

**Həyatda həpr an şirin,**
**Ömür şirin, can şirin.**
**Daha balı neylərəm,**
**Bəyazım baldan şirin.**

Və yaxud:

**Gül indi,**
**Sevin indi, gül indi.**
**Bəyazı çiçək bilib,**
**Oxuyur bülbül indi.**

Vaqif İsaqoğlunun Bəyazın nəğmələri adlı kitabı bu cür səmimi, ürəkdən gələn və xüsusilə uşaqların anlaya biləcəyi bir şəkildə ifadə olunmuş fikirlərlə, misralarla doludu. Ona görə də bu nəğmələri, yəni bu şeirləri oxuyanda özündən xəbərsiz sən də gözünün önünə uşaqları, nəvələri gətirirsən və elə bilirsən ki, həmin fikirlər sənin də nəvələrinə ünvanlanır. Bu isə artıq bir şair olaraq Vaqif İsaqoğlunun uğuru deməkdi.

"Bəyazın nəğmələri" ilə baş-başa qalanda burada bir məqamı da görməmək mümükün




deyil. O da babanın öz nəvəsinə doğulduğu torpağı, kəndi, bölgəni, bütövlükdə Azərbaycanı tanıdıb sevdirməsidi. Məsələn:

**- Baba, ay baba**
**- Nədi, can bala?**
**- Harda yerləşir**
**De, köhnə qala?**
**- O, kənd Tovuzdu**
**Yerləşir bala.**
**Yaşı min ilə**
**Çatıb az qala.**

Və yaxud:

**- Nənə, ay nənə**
**- De görüm mənə**
**Su necə axır,**
**Qar niyə yağır?**

Nümunələrdən də göründüyü kimi, bu fikirlər hər bir uşağa xasdı və onun şeirə çevrilməsi şair babanın içindən gələn bir tələbatdı. Və o da bunu böyük sevgiylə ifadə edə bilibdi. Ümumiyyətlə, "Bəyazın nəğmələri"ndə Vaqif İsaqoğlu nəvəsinin timsalında bütün uşaqlara vətəni, milləti sevməyi, Azərbaycanı şöhrətləndirməyi, sağlam və xoşbəxt böyüməyi arzulayır və bu arzuları da misralarla, bədii sözün gücüylə ifadə edir. Elə bu kitabdakı son şeirlərdə olduğu kimi:

**Qeyrətli qızı ol Azərbaycanın,**
**Ömrünə yazılsın hər ötən anın.**
**Əsli sağ, nəsli sağ ata-ananın,**
**Şərəfi, şöhrəti, vicdanı sənsən.**

Və yaxud:

**Unutma, Allah da halallıq sevir,**
**Üzünü həmişə sən haqqa çevir.**
**Göydən ulduzları dərərək bir-bir,**
**Çiçək tək saçına düz, qadan alım!**

**Bəli, düşünürəm ki, "Bəyazın nəğmələri" bütün uşaqlara, bütün nəvələrə bir baba sovqatıdı. Bu sovqatı araya-ərsəyə gətirən Vaqif İsaqoğluna mən də bir baba olaraq təşəkkür edib uğurlar diləyirəm.**

**Əbülfət MƏDƏTOĞLU**